## Azərbaycan dili

1. Sözün yazılışı və tələffüzünə görə uyğunluğu müəyyən edin.
   1. Bir fərq olanlar
   2. İki fərq olanlar
   3. Üç fərq olanlar
   a. müdhiş b. ziqzaq
   c. ibrətamiz d. özəlliklə
   e. səfərbərlik
   A) 1-a;2-e;3-d B) 1-c;2-b;3-d,e
   C) 1-c;2-a,b;3-d,e D) 1-a;2-c;3-d
   E) 1-b;2-e;3-d

2. Hansı cümlədə sözlərin hamısı omonimlik xüsusiyyətinə malikdir***?***
   A) Başa düşənə can qurban.
   B) Xəyalsız insan meyvəsiz ağaca bənzər.
   C) Yazana baxma, yazdığına bax.
   D) Dilini tut, döyüşü ud.
   E) Davada ağac aradakına dəyər.

3. Frazeoloji birləşmələrə aid düzgün fikirləri müəyyən edin.
   1. Danışıq zamanı yaranan birləşmələrdir.
   2. Bütün cümlə üzvləri vəzifəsində çıxış edə bilir.
   3. Həmişə feili birləşmələr şəklində olur.
   4. Hamısı bir sözlə ifadə oluna bilir.
   5. "Başı havalı" frazeoloji birləşmədir.
   A) 1,2,3 B) 3,4 C) 2,5
   D) 1,2,4 E) 1,4,5

4. Hansı birləşmə həm sərbəst, həm də sabit söz birləşmələri kimi düşünülə ***bilməz***?
   A) yola gəlmək B) yol öyrənmək
   C) yoldan çıxmaq D) yola düşmək
   E) yolunu azmaq

5. Məna tayları quruluşca fərqli olan antonimləri müəyyənləşdirin.
   1. qəlp-xalis 2. eniş-yoxuş
   3. ağıllı-dəli 4. çalışqan-tənbəl
   5. dağıntı-səliqə
   A) 2,3,4 B) 1,2,3 C) 2,4,5
   D) 1,3,5 E) 1,4,5

6. Etimologiyaya aid olan bəndi müəyyən edin**.**
   A) "Nəhəng" nitq hissəsinə görə sifətdir, necə? sualına cavab verir.
   B) "Qurtulmaq" - "xilas olmaq", "nicat tapmaq" mənasını ifadə edir.
   C) "Mətbuat" sözünün yazılışı və tələffüzündə fərq yoxdur.
   D) "Leksika" mənşəyinə görə alınma sözdür.
   E) "Qarayazı" sözündə "qara", "böyük", "yazı" "çöl" mənasındadır, yəni "böyük çöl" mənasını ifadə edir.

7. Nitqə aid uyğunluğu müəyyən edin.

| ***Doğrudur*** | ***Yanlışdır*** |
|---|---|
| 1. Dilin ifadə imkanları əsasında meydana çıxır.<br>2. Ünsiyyət vasitəsidir.<br>3. Dinləyib-anlama, danışma, oxu və yazı formalarında təzahür edir. | 4. Test və mimikadan nitqdə söylənən hər hansı fikri daha qabarıq ifadə etmək üçün istifadə olunur.<br>5. Nitqə emosional güc vermək üçün jest və mimikadan istənilən şəkildə istifadə etmək olur.<br>6. Hər bir nitq ədəbi dilin normalarına tabe olmalıdır. |

   A) 1,2,4 B) 2,5,6 C) 1,3,5
   D) 2,3,4 E) 4,5,6

8. Xüsusiyyətlərdən biri qrammatik normaya aid ***deyil***:
   A) Sözlər və cümlələr arasında əlaqələrin düzgün qurulmasıdır.
   B) Mübtəda üçüncü şəxsin cəmində olub, heyvan və quş anlayışları bildirərsə, xəbərin tək və cəmdə olmasına baxmayaraq, qrammatik norma pozulmaz.
   C) Cümlədə cümlə üzvlərinin sırası qrammatik norma ilə tənzimlənir.
   D) Hər bir şəxsdən sözün mənasına bələd olmağı, onu düzgün yerində işlətməyi tələb edir.
   E) Qrammatik norma çox gec dəyişir.

9. Hansı cümlədə fonetik norma ***pozulub***?
   A) Babam bizə gələsiydi.
   B) Məşqələmiz saat doqquzda başlayır.
   C) Aldı başımızı qara buludlar!
   D) Qurddan törəyən qurd olar.
   E) Bu payız günündə ürəyini bir nisgil sıxırdı.

10. "Yarpaxlar pıçıldayırlar bu axşam günü" cümləsində ədəbi dilin normaları haqqında düzgün fikri müəyyən edin.
   A) Fonetik, leksik və qrammatik norma pozulub.
   B) Yalnız fonetik və qrammatik norma pozulub.
   C) Yalnız leksik və qrammatik norma pozulub.
   D) Yalnız fonetik və leksik norma pozulub.
   E) Cümlədə norma pozulmamışdır.

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

t.me/BirlikTeam_Kaspi

11.Eylər-Venn diaqramına əsasən düzgün fikirləri müəyyən edin.



a. Şifahi və yazılı şəkildə olur.
b. Nəzm və nəsr formasında təzahür edir.
c. Kütləvi yığıncaqlarda və mitinqlərdə səslənən dildir.
d. Poetizmlərin işlənməsi əsas xüsusiyyətdir.
e. Xalq dilinə yaxındır.

A) 1-b,d;2-a,e;3-c B) 1-d,e;2-b;3-c,a
C) 1-a,b;2-c;3-d,e D) 1-c;2-a,b;3-d,e
E) 1-b,d;2-c;3-a,e

12. Uyğunluğu müəyyən edin.
1. Söz poetik funksiyada işlənmişdir.
2. Söz terminoloji funksiyada işlənmişdir.
a. Gözləməkdən gözlərimin kökü saraldı.
b. Kəndin aşağısından axan çayın şırıltısını dinləyirəm.
c. Sifət əlamət və keyfiyyət bildirir.
d. Zərfi əlinə alanda elə bil ürəyi yerindən oynadı.
e. Ocağın ətrafına xeyli adam toplaşmışdı.

A) 1-a,b;2-c,d B) 1-a,d;2-c
C) 1-c,e;2-a,b D) 1-b,d;2-c,e
E) 1-a,b,c;2-d,e

13.Rəsmi-işgüzar sənədlərə aid uyğunluğu müəyyən edin.
I. Rəsmi sənədlər
II. İşgüzar sənədlər

| I | II |
|---|---|
| 1. Hüquqi məzmuna malik olur.<br>2. Mütəxəssislər hazırlayır, adətən, müzakirə olunmur. | 3. Xüsusi dövlət əhəmiyyəti daşımır.<br>4. Dilin maksimum mükəmməlliyi əsasdır. |
| 5. Uzun müddət standart formalardan kənara çıxmır. | |

A) 1,3,5 B) 1,2,3 C) 3,4,5
D) 1,2,4 E) 2,3,5

14. Verilmiş isimlərin hansı halda olduğunu dəqiq müəyyənləşdirmək olar.
1. ağılın 2. Cismi 3. çiyni
4. fikrin 5. könülün 6. çaydan

A) 1,3,5 B) 3,5,6 C) 1,2,4
D) 2,5,6 E) 1,4,5

15.Cədvələ görə uyğunluğu müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | Adlıq halda olan isim cəm, mənsubiyyət, şəxs şəkilçilərini qəbul edə bilir. | Yanlış |
| 2 | Müəyyən yiyəlik halda olan isimlər iki sintaktik vəzifə daşıyır. | Doğru |
| 3 | Yönlük halda olan isim yalnız feili xəbərlə əlaqələnir. | Doğru |
| 4 | Təsirlik halda olan isim şəxs-xəbərlik şəkilçisi qəbul edib cümlənin xəbəri ola bilmir. | Doğru |
| 5 | Yerlik və çıxışlıq halında olan ismin tamamlıq və zərflikdən başqa sintaktik vəzifəsi yoxdur. | Yanlış |

A) 1,2,3 B) 1,3,4 C) 2,3,4
D) 2,4,5 E) 1,2,5

16. Hansı sırada verilmiş bütün sifətlər səhv yazılmışdır?
A) sarımtıl, dopdolu, zilqara, düm-ağ
B) düm-qara, tündgöy, alayarımçıq, boz təhər
C) tündsarı, tərtəmiz, açıqgöy, kəmşirin
D) az-acı, dümdüz, qosqoca, tünd yaşıl
E) kəm-turş, gömgöy, samsarı, ala-göy

17. Hansı saydan sonra gələn isimlər həm təkdə, həm də cəmdə işlənməz?
A) çox B) çoxlu C) onlarla
D) bir çox E) yüzlərcə

18. Feilin sadə şəkillərinə aid olan şəkilçi deyil?
A) -ıl$^4$ B) –malı$^2$ C) –ası$^2$
D) –sa$^2$ E) –a$^2$

19. Feilin qrammatik məna növlərinə aid düzgün fikri müəyyən edin.
A) "Ruhlanmaq" feilin qayıdış növündədir.
B) "Dalğalanmaq" feilin şəxssiz növündədir.
C) "Qızdırmaq" feilin icbar növündədir.
D) "Kiçilmək" feilin məchul növündədir.
E) "Halallaşmaq" feilin məlum növündədir.

20.Hansı cümlədə sifətin sintaktik sualı morfoloji sualından fərqlidir?
A) Qəhrəman oğullarımız ömrümüzə ömür qatdılar.
B) Dəri gödəkcə ona çox yaraşırdı.
C) Bu alma çox dadlıdır.
D) İgid odur ki, basdığını kəsməsin.
E) Küsənlər bu bayramda barışırlar.

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

21.Hansı sırada zərfin məna növlərinin hər birinə aid bir nümunə var.
A) qismən, hərdən-birdən, içəri, yanaşı
B) cəld, dərhal, gec, bəri
C) arabir, səlis, ötəri, bir az
D) aşağı, sevincək, ora, az-maz
E) hövlnak, bayaqdan, üzüstə, ortalıqda

22.Hansı nümunələrdə zərf kimi işlənmiş sözü digər nitq hissəsi kimi də işlətmək olar?
1. Düz həmişə əyrini kəsir.
2. Ayrı gəzən qoyunu qurd yeyən.
3. Gecənin uzanması hiss olunurdu.
4. Çox gəzən çox bilər.
5. Təmiz yaşasan, başın uca olar.
A) 1,2,3 B) 1,3,4 C) 2,4,5
D) 2,3,5 E) 1,4,5

### *Açıq tipli test sualları*

23.İdi, imiş və ya isə hissəciklərinin işləndiyi feilləri müəyyənləşdirin.
1. oxutduruldu 2. işləsək
3. gəzməliyəmmiş 4. düşməmişəm
5. yazmısansa 6. istəmirdi

24."Müşkül" sözünün leksik xüsusiyyətlərini müəyyən edin.
1. Yazılışı və tələffüzündə bir fərqli məqam var.
2. "Çətin" sözünün sinonimidir.
3. Sadə sifətdir.
4. Ahəng qanununa tabedir.
5. Ümumişlək sözdür.
6. Adi dərəcədədir.

25.Zərfə aid düzgün fikirləri seçin.
1. Səlis-tərzi-hərəkət zərfidir, düzgün yazılıb.
2. Tezliklə-zaman zərfidir yazılışı və tələffüzündə üç fərq var.
3. Ortalıqda-harada? sualına cavab verir, düzəltmədir.
4. Azacıq-zərf və say kimi işlənir, yazıldığı kimi tələffüz olunur.
5. Dəfələrlə-kəmiyyət zərfidir yazılışı və deyilişi arasında iki fərq var.

26.Feildən düzələn sifətləri müəyyən edin.
1. döyüşkən 2. sürücü
3. qaynar 4. çalışqanlıq
5. üzücü

27.Uyğunluğu müəyyən edin.
1. İdi (-dı$^4$), imiş (-mış$^4$) hissəcikləri
2. Keçmiş zaman şəkilçiləri –dı$^4$, -mış$^4$
a. Feilin kökünə və başlanğıc formasına artırılır.
b. Feildən başqa digər nitq hissələrinə də qoşula bilir.
c. İnkar şəkilçilərinə qoşulur.
d. Sözə həm ayrı, həm də bitişik yazıla bilər.
e. Feilin xəbər şəklini formalaşdırır.

***Mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28-30 saylı tapşırıqları cavablandırın.***

### *Uşaq və tac*

I. Bir ölkənin əhalisi təzə padşah seçmişdi və əyanlar tac qoyma mərasimi keçirməyə hazırlaşırdılar. Ustalar padşah üçün təzə tac düzəltmişdilər. Tacı daş-qaşla bəzəmək lazım idi. Amma belə bacarığa malik adam yox idi. Bütün ustalar tacı korlamaqdan qorxduqları üçün bu işə **<u>qol qoymaq</u>** istəmirdilər.
II. Nəhayət, bir sənətkar tapıldı və tacı bir aya bəzəyə biləcəyini dedi. Tacı ona verdilər və o bir ay qiymətli daşları tacın üstünə necə yerləşdirmək barədə fikirləşməklə keçirdi. Amma müddət bitənə qədər qorxudan taca əl vurmadı. Vaxtın tamam olmağına iki gün qalmış işə başladı, amma əlləri elə əsdi ki, az qaldı, tacı yerə salsın. Belə olduqda tac haqqında anlayışı belə olmayan balaca oğlan çağırdı və nə etmək olduğunu başa saldı. Özü elə həyəcanlı idi ki, işin gedişatını görmərək üçün bayıra çıxdı. Oğlan işi diqqətlə gördü və daşları taca çox ustalıqla yapışdırdı.
III. Padşah görülən işdən çox razı qaldı.

28. Mətnin ikinci abzası iki abzasdan ibarətdir. Həmin abzasın başladığı sözü müəyyən edin.
______________________________________
______________________________________

29.Uşağın daşları taca rahatlıqla yapışdırdığının səbəbini izah edin.
______________________________________
______________________________________
______________________________________

30.Mətndə altından xətt çəkilmiş ifadənin həqiqi və ya məcazi mənada işləndiyini müəyyən edin. Və həqiqidirsə, məcazi, məcazidirsə, həqiqi mənada cümlədə işlədin.
______________________________________
______________________________________
______________________________________

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

t.me/BirlikTeam1 Kaspi

## Tarix

31.Manna dövlətinin mövcud olduğu dövrə uyğun gəlir:
1. Arattanın ensi rütbəsi daşıyan hökmdar tərəfindən idarə olunması
2. Mixi yazı ilə "Qələbə sütunu" kitabəsinin tərtib olunması
3. Kimmer tayfa birliyinin Qafqaz və Ön Asiya istiqamətində yürüşə başlaması
4. İskit hökmdarı İşpakayın Assuriya üzərinə yürüşü
A) 1,2 B) 2,4 C) 1,3 D) 3,4 E) 1,4

32.E.ə II minilliyin ortalarında Misir tarixinə aid xüsusiyyətləri müəyyən edin:
1. Ərazilərinin bir qismini itirməsi
2. Özünün ən güclü dövrünü yaşaması
3. Şəkli yazının işarələr ilə əvəz olunması
4. Cənubda Nubiyanın tabe edilməsi
5. Fələstin və Suriyanın işğal edilməsi
A) 2,4,5 B) 1,3,4 C) 2,3,4 D) 1,3,5 E) 1,2,3

33.Cavanşirin hökmdarlığı dövrünə aid edilə *bilməz:*
1. Xəzərlərin vassallığının qəbul edilməsi
2. Sasani şahı III Yezdigərd tərəfindən mükafatlandırılması
3. Dəməşqdə Xəlifə Müaviyyə ilə görüşməsi
4. Kadisiyyə döyüşündəki qəhrəmanlığı
5. Bizans imperatoru II Konstantin ilə görüşməsi
A) 2,4 B) 1,2,4 C) 3,5 D) 2,3,4 E) 1,2

34.Hindistanın e.ə VI əsr və bizim eranın VI əsr tarixləri üçün oxşarlığı müəyyən edin:
A) Mauriya sülaləsinin hakimiyyətə gəlməsi
B) Makedoniya imperiyasının yürüşlərinə məruz qalması
C) Şimal-qərb torpaqlarının itirilməsi
D) Köçəri ari tayfalarının məskunlaşması
E) Vahid dövlətdə birləşdirilməsi

35.Albaniya hökmdarı Oroysun fəaliyyətinə *aid* ***deyil:***
A) Romalılara sülh təklif edilməsi
B) Sərkərdə Kanidiyə qarşı mübarizə
C) Pompey ilə sazişin bağlanması
D) Romalılara qarşı partizan müharibəsinin aparılması
E) Kür çayı sahilində məğlub olması

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

36.Cənubi Azərbaycanda 1886-cı ildə xalisə torpaqlarının satılması haqqında fərman verilməsinin səbəbi:
A) Babilər hərəkatının başlanması
B) İri feodalların taxıl möhtəkirliyi ilə məşğul olması
C) Şahın Talbotun şirkəti ilə müqavilə imzalaması
D) Bu torpaqların idarə edilməsinin yarıtmaz halda olması
E) Kəndliləri yardarlara çevirmək siyasəti

37.Səbəb-nəticə əlaqələrində doğru göstərilən bəndləri müəyyən edin:

| № | Səbəb | Nəticə |
|---|---|---|
| 1 | Ərəblər arasında siyasi və dini birliyin olmaması | VI əsrdə Bizans və Sasanilərin Ərəbistandan keçən ticarət yollarını ələ keçirmək uğrunda mübarizəyə başlaması |
| 2 | İslam dininin təbliğinin Məkkə əyanlarının qəzəbinə səbəb olması | Məhəmməd Peyğəmbərin tərəfdarları ilə Yəsribə köçməsi |
| 3 | Xəlifə Əlinin dövründə vergilərin azaldılması | Əyanların hiddətlənməsi və daxili çəkişmələrin güclənməsi |
| 4 | Əməvilərin Ərəb olmayan müsəlmanlara qarşı ayrı-seçkilik siyasəti | Pireney yarımadasında Kordova xilafətinin yaradılması |
| 5 | IX əsrin 2-ci yarısından xilafət ordusunda türklərin mühüm rol oynaması | Xürrəmilər hərəkatının baş verməsi |

A) 1,3 B) 2,3,4 C) 2,5
D) 1,2,3 E) 1,2,5

t.me/BirlikTeam_Kaspi

38.Eyler-Venn diaqramın əsasən uyğunluğu müəyyən edin:




a. Əhəməni ordusunun məğlub edilməsi
b. Suriya, Fələstin və Misirin ələ keçirilməsi
c. E.ə III əsrdə bütün İtaliyanın işğalının başlanması
d. Balkan yarımadasında yerləşməsi
e. E.ə VIII əsrdə polis adlanan şəhər – dövlətlərin yaranması

A) 1-e; 2- a,b; 3-d  B) 1-e; 2- b; 3-a,d
C) 1-d; 2- a; 3-b,c  D) 1-b,d; 2- c,e; 3-a
E) 1-a,d; 2- b; 3-c

39.Paleolitin son dövründə ibtidai icma cəmiyyəti üçün xarakterikdir:
A) Metallurgiyanın meydana gəlməsi
B) Evlərin çiy kərpic və daşdan inşa olunması
C) Nəsli icmanın meydana gəlməsi
D) Əhalinin böyük hissəsinin oturaq həyata keçməsi
E) Qəbilə ağsaqqallarının varlanmağa başlanması

40.Əməvilərin hakimiyyəti dövründə baş ***verməmişdir:***
A) Mərkəzi Asiyada Əbu Müslümün üsyanı
B) Puatye döyüşündə Frankların qalib gəlməsi
C) Paytaxtın Dəməşqə köçürülməsi
D) Misir, Mərkəzi Asiya, İran və Əfqanıstanın xilafətdən ayrılması
E) Pireney yarımadasının bir hissəsinin tutulması

41.Uyğunluğu müəyyən edin:

**Türk dövlətləri**

**1. II Göytürk xaqanlığı**

**a.** Əsası VII əsrin ikinci yarısında qoyuldu.
**b.** Çinə qarşı Kür Şadın başçılığı ilə üsyan qaldırdılar.
**c.** Sultan Mahmudun dövründə xaqanlığın qüdrəti daha da artdı.

**2. Qəznəlilər dövləti**

**a.** XI əsrin 40-cı illərində iki hissəyə parçalandı
**b.** Varlığına qurlular tərəfindən son qoyuldu
**c.** Əsası Eltəriş xaqan tərəfindən qoyuldu

A) 1-a,b; 2-c  B) 1-a; 2-b  C) 1-a,c; 2-b,c
D) 1-b; 2-a  E) 1-a,c; 2-a,c

42.Yunan - Əhəməni və Afina - Sparta müharibəsi arasındakı dövrdə baş vermişdir:
A) Bütün Afina vətəndaşlarının idarəetmədə iştirakının genişlənməsi
B) Solon islahatlarının keçirilməsi
C) II Filippin Yunanıstana hücum etməsi
D) Karfagenin Roma əyalətinə çevrilməsi
E) German tayfalarının Qərbi Romaya yürüşlərinin genişlənməsi

43.Hadisə - nəticə əlaqələrinin *doğru* göstərildiyi cavabı müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | 644-cü ildə Muğan əhalisi ilə müqavilənin imzalanması | Əhalinin Sasanilərin hakimiyyətini qəbul etməsi |
| 2 | Xürrəmilərin 778 və 808-ci illərdə ərəblərə qarşı çıxışlarının baş verməsi | Çıxışların uğursuzluqla nəticələnməsi |
| 3 | Ərəblərin VIII əsrin əvvəllərində Qafqazda hakimiyyətini bərpa etməsi | Albaniyanın Arran adlı vilayətə çevrilməsi |
| 4 | Heydər ibn Kavusun Xürrəmilər ilə vuruşan orduya komandan təyin olunması | Xürrəmilərin Həşdadsər yaxınlığında məğlub olması |
| 5 | Savalan dağı yaxınlığında Ərəb-Xəzər döyüşünün baş verməsi | Xəzərlərin Azərbaycan ərazilərinə yürüşlərinə son qoyulması |

A) 1,4  B) 2,5  C) 1,2  D) 3,5  E) 2,3

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
T.me/BirlikTeam_Kaspi

44. Verilən xüsusiyyətlərin aid olduğu Azərbaycan şəhərini müəyyən edin:
*- 830-cu ildə Xürrəmilər tərəfindən azad edildi*
*- Eldənizlər dövlətinin paytaxtı kimi fəaliyyət göstərmişdir*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

45. Şirvanşahlar dövlətinə *aid deyil:*
A) 910-cu ildə Slavyan dəstələri məğlub edildi
B) 1075-ci ildə Dərbənd əmirliyi dövlətə birləşdirildi
C) Paytaxt Yezidiyyə Slavyanlar tərəfindən qarət edildi
D) Əsası Məzyədilər sülaləsi tərəfindən qoyuldu
E) Yezid İbn Məzyədin oğlu Məhəmməd tərəfindən iqamətgah Gəncəyə köçürüldü

46. Saci hökmdarı Yusif ibn Sac və Salari hökmdarı Mərzban ibn Məhəmmədin fəaliyyətlərinə aid ümumi cəhətlər:
A) Şirvanşahlar dövlətinin asılı hala salınması
B) Paytaxtın yeni şəhərə köçürülməsi
C) Səlcuqlardan vassal asılılığın qəbul edilməsi
D) Xəzər dənizində ticarət gəmilərinin istifadə edilməsi
E) Rey şəhərinin Samanilərdən alınması

47. *Aramsız müharibələr Roma ordusunda dəyişikliyə səbəb oldu. Əvvəllər kəndlilərdən ibarət olan Roma ordusu muzdlulardan təşkil edilməyə başlandı. Yeni üsulla toplanan ordu Roma dövlətinə deyil, sərkərdələrə sədaqət andı içirdi.*
Mətndə bəhs edilən əsrə uyğun gəlir:
A) Respublika idarə üsulunun yaranması
B) Xalq tribunlarının seçilməyə başlanması
C) Karfagenin Roma əyalətinə çevrilməsi
D) Qay Yuli Sezarın Pompeyi məğlub etməsi
E) "12 lövhə" qanunlarının qəbul edilməsi

48. X yüzilliyin sonlarında Kapetinqlər sülaləsinin hakimiyyətə gəldiyi ərazini müasir xəritədə müəyyən edin:




A) 1 B) 2 C) 3 D) 4 E) 5

49.
**Mətn 1**
*İmperatorun əsas məqsədi Qədim Roma imperiyasının sərhədlərini bərpa etmək idi. İşğalçılıq siyasətinə Şimali Afrikadakı Vandal krallığının tutulması ilə başladı. Daha sonra İtaliyadakı Ostqot krallığı və İspaniyanın cənub şərq əraziləri ələ keçirildi.*

**Mətn 2**
*Döyüşkən və çoxsaylı saks tayfalarına qarşı apardığı müharibə 30 il davam etdi. Nəhayət, böyük torpaq sahələri bağışlamaqla Saks əyanlarını öz tərəfinə çəkib onları sakitləşdirə bildi.*
1-ci və 2-ci mətndə bəhs edilən hökmdarlar üçün oxşar cəhətdir:
A) Sasanilər ilə müharibə aparılması
B) İtaliyadakı torpaqların ələ keçirilməsi
C) Pireney yarımadasında ərəblərin məğlub edilməsi
D) VI əsrdə fəaliyyət göstərmələri
E) Frank dövlətinin idarə edilməsi

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
T.me/BirlikTeam_Kaspi

50.Xəritədə paytaxt şəhəri ulduz ilə işarələnmiş feodal dövlətinin tarixinə aid xüsusiyyətləri müəyyən edin:




1. Gürcü və Xəzərlərə qarşı uğurlu müharibələr aparılmışdır
2. Hakimiyyətdə Şüeybilər, Şeybanilər və Cəfərilər sülaləsi olmuşdur
3. Xudafərin körpüsü inşa edilmişdir
4. Səlcuq sultanı Alp Arslan tərəfindən varlığına son qoyulmuşdur

A) 1,2 B) 1,4 C) 1,3
D) 2,4 E) 2,3

51.Verilən xüsusiyyətlər aiddir:
- *İlk milli partiya idi.*
- *İlk dəfə Şimali Azərbaycana muxtariyyət verilməsi təklifini irəli sürmüşdü.*

A) Difai partiyası
B) Hümmət təşkilatı
C) Müsavat partiyası
D) Qeyrət partiyası
E) Müdafiə partiyası

52.Uyğunluğu müəyyən edin:




A) 1-b,c; 2-a B) 1-b; 2-b,c
C) 1-a; 2-b D) 1-a,c; 2-a,b
E) 1-c; 2-a,c

### *Açıq tipli test sualları*

53.Xronoloji arıcıllığı müəyyən edin:
1. Astiaq ilə əyanlar arasında ziddiyyətlərin artması
2. Atropatın Midiya satrapı təyin edilməsi
3. Selevki dövlətində III Antioxun hakimiyyətə gəlməsi
4. Əhəməni Fars dövlətinin imperiyaya çevrilməsi

54.*Talas məğlubiyyəti Çinin daxili işlərinə müdaxilə etməyə şərait yaratmışdı. Beləki, anası türk olan Çin sərkərdəsi imperatoru devirib hakimiyyətə sahib oldu. İmperatorun hakimiyyətini bərpa etmək üçün kömək istəməsi, xaqanın yürüş edib imperatorun hakimiyyətini bərpa etməsi ilə nəticələndi. Qarşılığında Çin ipəklə xərac ödəməli oldu.*
Mətndə bəhs olunan türk dövlətindən fərqli olaraq, I Göytürk xaqanlığı:
1. VIII əsrin birinci yarısında meydana gəlmişdi
2. Çini asılı hala salmışdı
3. Soqdiana vilayətini ələ keçirmişdi
4. Ağ Hun dövlətini məğlub etmişdi
5. Uyğur dövlətinin varlığına son qoymuşdu

55.E.ə II əsr Romanın xarici siyasəti üçün xarakterikdir:
1. Karfagen dövləti ilə müharibənin başlanması
2. Aralıq dənizinin şərq sahilləri uğrunda mübarizənin aparılması
3. Makedoniya və Yunanısatanın işğal edilməsi
4. Plebeylərin Xalq tribunu seçmək hüququnu qazanması

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
T.me/BirlikTeam1Kaspi

56.XIX əsrin 70-ci illəri Neft sənayesi üçün xarakterikdir:
1. Buxar nasoslu ilk neft kəmərinin çəkilməsi
2. "Bakı ağ neft zavod sahibləri ittifaqı" adlı inhisar birliyinin yaradılması
3. Cavda Məlikovun ağ neft zavodu tikdirməsi
4. Nobel qardaşlarının Bakıda neft şirkətinin yaradılması
5. Bakı-Tiflis dəmir yolu xəttinin işə salınması

57.Uyğunluğu müəyyən edin:
XII əsrin ikinci yarısı:
*1. Səlcuq imperatorluğu*
*2. Eldənizlər dövləti*
*3. Şirvanşahlar dövləti*
a. Həmədan uğrunda vuruşmada Xarəzmşahların məğlub edilməsi
b. Süquta uğraması
c. Gürcü çarı III Georgiyə qiyamı yatırmaq üçün kömək edilməsi
d. Didqori döyüşündə məğlub olması
e. Monqol hücumlarına məruz qalması

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

Oğuzların işğalçılıq yürüşləri və miqrasiya xarakterli köçləri bir neçə istiqamətə yönəlmişdi. Yaxşı hazırlanmış bu hərəkət bir neçə mərhələdə davam edirdi. Dayanmadan hərəkət etmək və tutduqları yerləri əllərində saxlamaq üçün lazımi qüvvəyə malik olmayan oğuzlar böyük hərbi kampaniyalardan sonra ordunun yerini dəyişdirməli və dayaq bazaları yaratmalı olur, mümkün olan yerlərdə yerli feodal hakimlərin dinc yolla itaətinə nail olmağa cəhd göstərirdilər. Yürüş prosesinin lap əvvəlindən başlayaraq çoxsaylı dəstələr Azərbaycana göndərilmiş, XI əsrin 40-cı illərinin ikinci yarısında ölkənin cənub vilayətləri türk qəbilələrinin məskəninə çevrilmişdi. Buradan həmin qəbilələr ölkənin şimal vilayətlərinə və Cənubi Qafqazın qalan hissələrinə köç edirdi. Müstəqil hərəkət edən belə dəstələrin başında konkret tapşırıq almış məliklər dururdu.

58.Mənbədə bəhs edilən yürüşlər nəticəsində Azərbaycan ərazisində Oğuz türklərinə tabe olmuş hökmdarları qeyd edin: (azı üç hökmdar)

59.Tarixi biliklərinizə əsasən mənbədə bəhs olunan yürüşlərin Cənubi Qafqaz üçün 3 mühüm nəticəsini qeyd edin:

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

T.me/BirlikTeam_Kaspi

60.Tarixi biliklərinizə əsasən bu yürüşlər nəticəsində Azərbaycan ərazilərinin asanlıqla ələ keçirilməsinin səbəblərini müəyyən edərək yazın:

## Ədəbiyyat

61. Eyler-Venn diaqramına əsasən müqayisə edib doğru fikirləri seçin.




1. Əyani göstərmə üsulunda yazılan əsərlərin forma elementidir.
2. Süjetin tərkib hissəsidir.
3. Epik əsərlərdə özünü göstərə bilməz.
4. Özündən sonrakı mərhələlər üçün zəmin rolu oynayır, əsas hadisələrə giriş funksiyasını yerinə yetirir.
5. Əsərin əvvəlində verilən kiçik hissədir, danışılan əhvalatla yığcam tanışlıq mərhələsidir.
6. Əsas qəhrəmanın fəaliyyətinə işıq tutulur, əsərin ideyası müəyyənləşdirilir.

A) 1,3,4 B) 2,5 C) 1,2,5
D) 4,5 E) 2,4,6

62.Bədii əsərin *məzmun və forması* haqqında fikirlərdən biri ***səhvdir:***
A) Əsərin mövzu, ideya, problemi məzmunun tərkib hissələridir.
B) Məzmun əsasdır və o, formanı müəyyən edir.
C) Şah beyt bədii əsərin forma xüsusiyyətinə aid deyil.
D) Məzmun formaya nisbətən sabitdir.
E) Forma məzmuna təsir edir, onu tamamlayır.

63.Uyğunluq ***pozulub:***

| | |
|---|---|
| A) Əsas surət bəzən əsərdə o qədər də görünməyən bir obraz ola bilər. | *doğru* |
| B) Təbiət surəti hər zaman qəhrəmanın əhval-ruhiyyəsinə uyğunlaşdırılır. | *yanlış* |
| C) Təsvir olunan hadisənin mərkəzində duran və yazıçının irəli sürdüyü ideyanın əsas ifadəçisinə çevrilən surət bədii əsərin qəhrəmanı adlandırılır. | *doğru* |
| D) Əsərin baş qəhrəmanı müsbət surət ola bilsə də, mənfi surət ola bilməz. | *doğru* |
| E) Xarakter insanın ictimai mövqeyindən, psixologiyasından, əxlaqi görüşündən irəli gəlmir. | *yanlış* |

64.Hansı bənddə nöqtələrin yerinə *"həm, həm də"* əlavə etsək, fikir doğru ***olmaz***.
A) Heca vəznində vahid bölgü prinsipi ... pozula bilər, ... pozulmaya bilər.
B) Heca vəznində bölgü zamanı bütöv söz prinsipi ... pozula bilər, ... pozulmaya bilər
C) Qafiyə ... eyni, ... müxtəlif nitq hissəsi ilə ifadə oluna bilər.
D) Əruz vəznində misralardakı hecacaların sayı ... eyni, ... müxtəlif ola bilər.
E) Sərbəst şeirdə qafiyələnmə ... ard-arda, ... çarpaz ola bilər.

65.Düzgün fikri müəyyən edin.
A) Şeirin ahəngindən asılı olmayaraq, misralarda bir neçə yerdə fasilə ola bilər.
B) Qafiyə həmişə misraların sonunda işlənir və digər sözlərə nisbətən yüksək intonasiya ilə deyilir.
C) Cinas qafiyə bütün misralarda fərqli yerə düşməlidir.
D) Qafiyə şeirin məzmunu və quruluşu ilə bağlı olur.
E) Misraların oxunuşu zamanı verilən fasilələr *vəzn* termini ilə də ifadə olunur.

66.Müqayisə cədvəlinə əsasən doğru fikirləri müəyyən edin.
*Ağ xələt bürünər, zərnişan geyməz,*
*Heç kəsi dindirib keyfinə dəyməz,*
*Sərdara söz deməz, şaha baş əyməz,*
*Qüdrətdən səngərli, qalalı dağlar.*

*Tarixdə namının silinməz şanı,*
*Karvanlar boynunun qızıl mərcanı,*
*Sinəndə kəsərlər ellər qurbanı,*
*Keçirərkən ağır illər, a dağlar!..!*

| A | B |
|---|---|
| 1. Təbiət mövzusunda yazılıb. | 3. Misradaxili bölügüsü 6+5 kimidir. |
| 2. Müraciətdən istifadə edilməyib. | 4. Rədifə əsasən adlandırıla bilər. |
| 5. Orta bəndlərdən biridir.<br>6. Eyni şeirdən bir parçadır. | |

A) 1,2,4 B) 3,6 C) 1,2,5 D) 3,4,6 E) 2,5

67.Müqayisə cədvəlinə əsasən doğru fikirləri müəyyən edin.
A. *poema* B. *hekayə*

| A | B |
|---|---|
| 1. Hadisələrin təsvirində göstərmə üsulu əsasdır. | 3. Həm nəzm, həm də nəsrlə yazıla bilər. |
| 2. Nəsrlə yazıla bilməz. | 4. Qarışıq janr da deyilir. |
| 5. Təhkiyəyə yer verilir.<br>6. Tərənnüm üstünlük təşkil edə bilir. | |

A) 1,3,5 B) 2,3,5 C) 1,2,5 D) 3,4,6 E) 2,3,6

68.Sxemdəki boş xanaya nə yazıla bilər?


A) Alleqoriyadan, süjet xəttindən, tərənnümdən istifadə olunur.
B) Aktyor və rejissorlar üçün olan hissələr həm nəzm, həm də nəsrlə yazılır.
C) Həyatı əksetdirmə üsulu "Töhfətül-iraqeyn" (X.Şirvani) əsəri ilə eynidir.
D) Hər ikisinə "dram əsəri" demək mümkündür, çünki dramatik növdə yazılıb.
E) Müəllif hadisələrə müdaxilə edə bilməsə də əlavə hissələr səhnədə oxunur.

69.*"Dəli könül"* birləşməsində sözlərin yerini dəyişsək, .... - nöqtələrin yerinə yazıla bilər:
A) ... epitetdən təşbehə keçid olacaq.
B) ... təşbehdən epitetə keçid olacaq.
C) ... epitetdən metafora keçid olacaq.
D) ... metafordan epitetə keçid olacaq.
E) ... epitetdən metonimiyaya keçid olacaq.

70.Nümunədə işlənən bədii təsvir vasitələrinə aid xüsusiyyətləri müəyyən edin.
*Əzəldən belədir çünki kainat,*
*Cahan daimidir, ömür amanat.*
*Əldən-ələ keçir vəfasız həyat,*
*Biz gəldi-gedərik, sən yaşa, dünya!.. (S.Vurğun)*
1. Təyinedici ifadədən istifadə olunub.
2. Bir əşya özündən daha qüvvətli əşyaya bənzədilib.
3. Əşyanın əlaməti həmin əşyanın adı çəkilmədən digər əşyanın üzərinə köçürülüb.
4. Əşya və hadisə əvəzinə onunla bağlı olan başqa bir ad işlənib.
5. Bir əlamət bütöv bir anlayışı əvəz edib.
A) 1,3 B) 2,4,5 C) 1,2 D) 3,4,5 E) 1,4,5

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı
t.me/BirlikTeam Kaspi

71. Cədvəldən ***uyğunsuzluğu*** müəyyən edin.

| | *Fikir* | *Uyğunluq* |
|---|---|---|
| A | Sintaktik fiqurlarda məcazilik şərt deyil | *doğru* |
| B | Baş qəhrəman həmişə müsbət xarakterli olur. | *yanlış* |
| C | Təşbeh gizli köçürmə hesab olunur. | *doğru* |
| D | Şeir vahidi fərqlənən şeirlər şəkilcə eyni ola bilər. | *yanlış* |
| E | Qəzəl və qitənin qafiyə quruluşu eynidir. | *yanlış* |

72. Eyler-Venn diaqramına əsasən doğru fikirləri seçin.




1. Özünəməxsus melodiyasının olması ilə fərqlənir.
2. Lirik növdə yazılır, tərənnümdən istifadə olunur.
3. Epik əsərlərin içərisində işlənir.
4. Müxtəlif vəznlərdə yazıla bilər.
5. Xalqın məişəti, güzəranı ilə bağlıdır.
6. Bu janrda olan əsərdə musiqinin müşayiəti də olur.

A) 1,2,5 B) 2,3,4 C) 2,6
D) 1,5 E) 2,3,5

73. *"Tomris", "İrəvanda xal qalmadı", "Dəyirman"*, .... - həyatı əksetdirmə üsuluna görə ardıcıllığı tamamlayan variantı seçin.
A) "Dəsmalı ver"
B) "Dava yorğan davasıdır"
C) "Qaragilə"
D) Bayatı janrı
E) "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş" tamaşası

74. Doğru fikri müəyyən edin.
A) Lətifələr başqa bir janrın yaranmasında zəmin rolunu oynayır.
B) Əşyanın məcazi təsviri verilən janrda fikrin ifadəsi obyektin məzmununa tənəli şəkildə əks olunur.
C) Məişət nağıllarının əsasında sehirli qüvvələrlə mübarizə dayanır.
D) Rəvayətlərdə əfsanələrdə olduğu kimi, əfsanəvi şəxsiyyətlərin həyatından söz açılır, real şəxsiyyətləri əks etdirə bilmir.
E) Atalar sözü və məsəllər yalnız formaca fərqlənir.

75. Hansı fikir ***yanlışdır?***
A) Oyunlar uşaq orqanizminin ehtiyacından yaranan, əsasən, kollektiv şəkildə icra edilən bir janrdır.
B) Müəllifin məlum olması aşıq yaradıcılığını şifahi xalq ədəbiyyatından fərqləndirir.
C) Şəbihlər daha çox məhərrəmliklə bağlı olan dini tamaşalardır.
D) "Xəndəyədüşmə", "Dəyirman", "Uçdu-uçdu" kimi oyunlarda əşyalardan istifadə olunur.
E) Məhəbbət dastanları, adətən, ustadnamə ilə başlayıb duvaqqapma ilə bitir.

76. Farsdilli poeziyanın nümayəndələrinə aiddir:
1. Əsərlərini farsca yazsalar da, təbliğ etdikləri ideya türk düşüncəsi idi.
2. Vətənpərvərlik, məhəbbət, doğma yurda bağlılıq hisslərinin təsvirini təhkiyəyə əsaslanaraq yazıblar.
3. Bu sənətkarların yaradıcılığında ictimai-siyasi problemlər, humanist ideyalar da əksini tapırdı.
4. Əbül-üla Gəncəvi, Mücirəddin Beyləqani, Fələki Şirvani kimi şairlər bu dildə yazılan əsərlər müəllifidirlər.
5. Tarixi hadisələrə, ictimai-fəlsəfi məsələlərə əsər həsr etməyiblər.

A) 1,3,5 B) 1,3,4 C) 2,3,5 D) 1,2,4 E) 2,4,5

77. Qədim dövrə aid edilə ***bilməz:***
A) Azərbaycan ədəbiyyatı ümumtürk ədəbiyyatının tərkib hissəsi kimi çıxış edir.
B) Qədim türk bədii düşüncələrini bizə ilk tanıdan Orxon-Yenisey abidələri olmuşdur.
C) Bu dövrdəki bəzi dastanlar türklərin tarixini, qəhrəmanlığını əks etdirən bədii nümunələrdir.
D) Saray ədəbiyyatında mədhiyyənin müstəqil janr kimi formalaşması başa çatmışdır.
E) Bu dövrdə doğma vətənlərində yaşayaraq ərəb dilində əsərlər yazanlar C.M.Marağai, B.Zəncani, Ə.A.Mülğəçi olmuşdur.

78. *"Gənclərə nəsihət"* (X.Şirvani) əsərinin məzmununa əsasən doğru fikri müəyyən edin.
A) Dosta hər zaman havadar çıxmaq məsləhət görülsə də, yalnız dost cənnət ağacının budağını qırdığında əngəl olmaq tövsiyə olunur.
B) Dostu qovanlardan uzaq durmaq tövsiyə edilərək onu ittiham etmənin mənfi tərəfləri əks olunub.
C) Haqq yolunda haqqın razı olacağını bilənəcən çalışmaq süjet xəttinə daxil edilir.
D) Lovğalarla bağlı müəllifin fikirləri ifadə olunub, onlara qarşı xoş davranmaq, əməllərindən uzaqlaşdırmaq əks edilib.
E) İnsanın ürəyinin və hümmətin böyük olması tövsiyə edilir.

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

79. *"Basatın Təpəgözü öldürdüyü boy"la* ("Kitabi-Dədə Qorqud" eposu) bağlı verilən fikirlərdən hansı doğrudur?
A) Atasının ağlamasına dayana bilməyən Basat qardaşının intiqamı üçün Təpəgözün yanına gəlir.
B) Qapaqqan qocanın oğlunun azad edilməsinə səbəb olan Basat ondan qardaşının ölüm xəbərini eşidir.
C) Basatın qələbə xəbərini atasına Bunlu və Yapaqlı qoca vermir.
D) Basat Təpəgözdən qoyun dərisindən istifadə etməklə qurtulmağı bacarmır.
E) Təpəgözün süd qardaşı olduğu biləndən sonra Basatın ona yazığı gəlir.

80. *"Uruzun dustaq olduğu boy"da* ("Kitabi-Dədə Qorqud" eposu) ***baş verməyən*** hadisəni seçin.
A) Uruzun düşmən əlində əsir olması.
B) Atasının namusuna görə Uruzun asılmağa gətirilməsi.
C) Qazan xanın oğlunu "səhvinə" görə cəzalandırmaq istəməsi.
D) Qazanın əl altından doxsan dəstəyə xəbər verməsi.
E) Burla xatunun kafirin bayrağını qılınclaması.

81. Hansı rəqəmlərin yeri dəyişilsə, *"Salur Qazanın evinin yağmalanması"* boyundakı obrazlarla bağlı uyğunluq bərpa olunar?

| Qazan xan | Qaraca Çoban |
|---|---|
| 1. Bəylərə ova getməyi təklif edir. | 2. Vuruşmaq üçün at, nizə, qalxan , qılınc istəyir. |
| 3. Kafirin nizəsi ilə öz dəyənəyini müqayisə edir. | 4. Qardaşına yuxusunu yozdurur. |
| 5. "Qurd üzü uğurludur" ifadəsi onun dilindəndir. | 6. Kafirə: "Qazanın anası qocalıbdır, oğul verməz", - deyir. |
| 7. Köpəyi qamçı ilə vurur. | 8. Qardaşlarının qisasını almaq üçün düşmən üzərinə gedir. |

A) 3-4 B) 3-8 C) 5-6 D) 7-4 E) 1-2

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

82. *"Uruzun dustaq olduğu boy"a* əsasən uyğun fikirlərlə klasteri tamamlayın.




1. Burla xatun Qazanın və oğlunun ovdan gəlmədiyini görüb onları axtarmağa gedir.
2. Uruz atasının sözünə qulaq asır, əvvəlcə döyüşə girmir.
3. Qazan xan oğlunu xilas etmək üçün gəlsə də, Uruz onun geri qayıtmasını istəyir.
4. Kafirin Uruza verdiyi zülmü görəndə Qazan xan düşmənin üzərinə hücuma keçir və üçüncü hücumda istəyinə müvəffəq olur.

A) 1,3 B) 1,4 C) 1,2 D) 2,3 E) 3,4

83. *"Salur Qazanın evinin yağmalanması"* boyunda ("Kitabi-Dədə Qorqud" eposu) hadisələrin təhkiyə ardıcıllığını müəyyən edin.
1. Qaraca çobanın üzərinə altı yüz kafir hücum çəkir.
2. Qazan bəy qara qayğılı yuxusunu Qaragünəyə danışır.
3. Şöklü Məlik Qazandan Burla xatun vasitəsilə heyif almağı planlayır.
4. Qazan bəy su ilə xəbərləşir.
5. Uruzu asmaq üçün qənarə dibinə gətiriləndə ağacla danışmaq üçün aman istəyir.

84. Aşıq yaradıcılığı ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Digər folklor nümunələrindən fərqli olaraq müəllifi bəllidir.
2. Dramatik növün məhsuludur.
3. Ən çox müraciət olunan janrlar qoşma, gəraylıdır.
4. Əfsanələr aşıq yaradıcılığının məhsulu sayılır.
5. Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər aşıq sənətinin inkişafına, zənginləşməsinə töhfə vermiş yaradıcı aşıqlardır.

85. "Dərzi şagirdi Əhməd" nağılındakı obrazlarla bağlı uyğunluğu müəyyən edin.
1. Pəri Soltan - Əhmədin zindana atılmasının səbəbini zindanbandan öyrənir və ürəyi şan-şan olur.
2. Vəzir Allahverdi xan – İlk sualda Əhmədin cavab verə biləcəyini deyir.
3. Şah Abbas - Firəng padşahının suallarına cavab tapmaq üçün xalqa müraciət edir.
4. Zindanban - zindandan Pəri Soltanın otaqlarından birinə qapı açmağı təklif edir.
5. Əhməd - almaların sirrini tapmaq qarşılığında Pəri Soltanla kəbin kəsdirilməsi şərtini qoyur.

86.Nağıllarla bağlı ***səhv*** fikirləri müəyyən edin.
1. Nağıllarda xeyri və şəri təmsil etməklə heyvanlar iki qrupa bölünür.
2. Nağıllarda real hadisələrə yer verilmir.
3. Məzmununa görə üç yerə bölünür.
4. Folklorda toponimik nağıllar da əsas yer tutur.
5. Sehrli nağıllarda qəhrəman öz arzusuna çatmaq üçün adi şər qüvvələrlə mübarizə aparmır.

87.Uyğunluğu müəyyən edin.
1. Təşbeh
2. Metonimiya
3. Metafor

a. Açıb gen qoynunu düzlər gəl dedi,
Arzular cücərib qol-budaq atdı. (N. Kəsəmənli)
b. Bir gözəl özünü asdı saçından,
Gəncənin dünyaya etirazıydı. (N. Həsənzadə)
c. Zamanın süzgəci narından narın,
Keçirir hər sözü neçə ələkdən. (B. Vahabzadə)
d. Daşlar yumruq kimi düyünlənibdir,
Bu qədər yumruğun sahibi hanı? (N. Kəsəmənli)
e. Oldu başdan-başa o boyda ölkə
Məhkum millətlərin həbsxanası.(B. Vahabzadə)

**Dağlar**

Öpərkən alnından füsunlu bir yaz,
Axıyor döşündən sellər, a dağlar!
Yaşil, zümrüd gözlü yamaclarında
Açılır lalələr, güllər, a dağlar!..

Tarixdə namının silinməz şanı,
Karvanlar boynunun qızıl mərcanı,
Sinəndə kəsərlər ellər qurbanı,
Keçirərkən ağır illər, a dağlar!..

Torpağın cəvahir, daşların almas,
Çamlıqlar geyinmiş ipəkdən libas,
Bəzən bilməm neçin saxlayırsan yas,
Quzğundan əsərkən yellər, a dağlar?..

Çəkilmiş qəlbinə əskidən min dağ,
Titrəyir eşqini anan hər dodaq,
Yayılır şikəstə səsləri dağ-dağ,
Nə söylər bu qərib dillər, a dağlar?..

Zirvəndə oynayan ruzgarlar acı,
İllərlə görünməz başının tacı,
Anlat ki, dərdinin nədir ilacı,
Nədir bu dumandan tüllər, a dağlar?

Boynunda qızlardan rəngin bir dəstə,
Lalələr dağılmış yolların üstə,
Sən gəl bu ölkədən min qurban istə
Səndən əsirgəməz yollar, a dağlar!..

(Almas İldırım)

Kaspi Təhsil Şirkəti - Ümumi Sınaq İmtahanı

**Dağlar**

Bir ay yarım nobahardan keçəndə,
Car olur köksündən sellərin, dağlar!
Çalxanır sonalar, çığrışır qazlar,
Zəm-zəm zümzüməli göllərin, dağlar!

Hanı mən gördüyüm qurğu-büsatlar!?
Dərdməndlər görsə, tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəşmir atlar,
Niyə pərişandı halların, dağlar?!

Hanı bu yaylaqda yaylayan ellər!?
Görəndə gözümdən car oldu sellər.
Seyr etmir köksündə türfə gözəllər,
Sancılmır buxağa gullərin, dağlar!

(Aşıq Ələsgər)

***Sizə təqdim olunmuş nümunəni diqqətlə oxuyun və 88-90 saylı tapşırıqları yerinə yetirin.***

88.Verilmiş nümunələrə əsasən cədvəli doldurun..

| Forma xüsusiyyətləri ilə bağlı ortaq cəhətlər | Məzmun xüsusiyyətləri ilə bağlı ortaq cəhət |
|---|---|
| 1. | 3. |
| 2. | 4. |

89.Birinci şeirdə işlənmiş bədii təsvir vasitələrini, ikinci şeirdə işlənmiş bədii ifadə vasitələrini müəyyən edin və nümunə ilə əsaslandırın.

90.İkinci nümunənin vəznini müəyyən edin və seçiminizi əsaslandıran bir fakt yazın.

Birlik Team1 Kaspi

## Coğrafiya

61. Gecə və gündüz uzunluqları arasında fərqin böyük olduğu ərazilər:




A) 3, 5  B) 3, 4  C) 4, 6
D) 1, 2  E) 2, 5

62. Verilmiş xətti miqyasa əsasən ədədi miqyası müəyyən edin.




A) 1 : 500000
B) 1 : 75000
C) 1 : 250000
D) 1 : 25000
E) 1 : 750000

63. Kəsmə yüksəkliyi 5 m olan sxemdə təsvir olunan relyef formasına uyğun gələn əlamətləri seçin.




1. təpədir
2. çökəklikdir
3. səth axınları B-dən A-ya doğru axar
4. B və C məntəqələrində duran müşahidəçilər bir-birini görə bilməz
5. A nöqtəsi B və C nöqtələrindən aşağıda yerləşir
6. Səth axınları daxildən kənarlara doğru axır

A) 2,3,5  B) 1,3,5  C) 4,5,6
D) 1,4,6  E) 2,3,4

64. Yerin illik hərəkəti zamanı yaranan işıqayırıcı dairə (gecə və gündüzü ayıran) hansı tarixlərdə qütblərdən keçir ?




A) 21 mart , 23 sentyabr
B) 22 iyun, 21 mart
C) 23 sentyabr, 22 dekabr
D) 22 iyun, 22 dekabr
E) 04 iyul, 03 yanvar

65. Anlayışı müəyyən edin.




A) Plan
B) Topoqrafik xəritə
C) Aerofotoşəkil
D) İcmal xəritə
E) Qlobus

66. Sxemə əsasən doğru fikirləri müəyyən edin.




1. Günəş şüaları Bakıya 63,5$^0$ bucaqla düşür.
2. Ekvatora Günəş şüaları 66,5$^0$ bucaqla düşür.
3. Günəş 13,5$^0$ şm.e-də zenitdədir.
4. Bakıya Günəş şüalarının sxemdəki düşmə bucağı həm yazda həm də yayda müşahidə olunur.
5. Bakıya Günəş şüalarının düşmə bucağı 53,5$^0$ – dir.
6. Günəş şimal tropiki üzərində zenitdədir.

A) 2,4,5  B) 1,3,4  C) 4,5,6
D) 1,4,6  E) 2,3,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

67. Uyğunluğu müəyyən edin.
1. Silindrik proyeksiya
2. Konus proyeksiya
3. Azimutal proyeksiya
4. Çoxüzlü proyeksiya
a. Sıfır təhrifli xətt ekvator hesab olunur.
b. paralellər qövsvari formada, meridianlar isə bir nöqtədən şaxələnən xətlər kimi təsvir olunur.
c. Yer səthinin hər hansı bir nöqtəsi müstəviyə toxunur, toxunma nöqtəsindən kənarlara doğru təhrifin dərəcəsi artır.
d. Tərtib olunduğu xəritələrdə bütün təhriflər aradan qalxır.
e. Əsasən topoqrafik xəritələrin tərtibi zamanı istifadə olunur.
A) 1-b , 2-a , 3-c , 4-d,e
B) 1-d , 2-a , 3-b , 4-c
C) 1-c , 2-a , 3-d , 4-b
D) 1-a , 2-b , 3-c , 4-e
E) 1-a,d , 2-c , 3-e , 4-b

68. Eyni enlikdə və bir-birindən 6 saat 40 dəqiqə zaman fərqində yerləşən məntəqələrə 21 martda günorta vaxtı Günəş şüaları 50° bucaqla düşür. Məntəqələr arasındakı məsafə 1: 35 000 000 miqyaslı xəritədə neçə sm olar?
A) 55,5 B) 12 C) 28
D) 15,2 E) 24,4

69. İki işıqlanma qurşağında yerləşən adalar:
1. Saxalin
2. Qrenlandiya
3. Yeni Zelandiya
4. Baffin torpağı
5. Sumatra
6. Madaqaskar
A) 1,2,5 B) 2,4,6 C) 3,4,5
D) 1,4,6 E) 2,3,5

70. Kəsmə yüksəkliyi 15 m olarsa, təpənin nisbi hündürlüyünü müəyyən edin




A) 120 m B) 70 m C) 350 m
D) 55 m E) 65 m

71. A məntəqəsində yerli vaxtla 10 noyabr saat 21:50 olarsa, B məntəqəsində yerli vaxtı müəyyən edin.




A) 09 noyabr, 02:10 B) 09 noyabr, 17:34
C) 11 noyabr, 02:06 D) 11 noyabr, 00:06
E) 10 noyabr 17:34

72. Hansı coğrafi obyektlər üzərində Günəş zenitdə olur ?
1. Madaqaskar adası 2. Yapon adaları
3. Abşeron yarımadası 4. Benqal körfəzi
5. Karib dənizi 6. Aralıq dənizi
A) 1,3,5 B) 2,4,6 C) 1,4,5
D) 1,4,6 E) 2,3,5

73. Tropik (**I**) və mülayim (**II**) işıqlanma qurşaqlarının fərqli və oxşar xüsusiyyətləri:




1. Fəsillər aydın müşahidə olunur
2. Gecə-gündüzün adi növbələşməsi baş verir
3. Günəş ildə iki dəfə zenitdə olur
4. Qütb gecə və gündüzləri müşahidə olunmur
A) I – 1, 2 II – 3 III - 4
B) I – 3 II – 1 III – 2, 4
C) I – 4 II – 3 III – 1, 2
D) I – 2 II – 1,4 III – 3
E) I – 3,4 II – 2 III – 1

74. Bakıda şaquli basdırılmış dirəyin günorta vaxtı kölgəsinin uzunluğu dirəyin öz hündürlüyünə bərabər olarsa, bu zaman Günəşin zenitdə olduğu enliklə ekvator arasındakı ən qısa məsafəni hesablayın.
A) 9435 km B) 4995 km C) 555 km
D) 4440 km E) 4270 km

75. Eyni hündürlüyə malik olan nöqtələri birləşdirən əyri xətlər adlanır :
A) izobat B) izobar C) izogiyet
D) izohips E) izoterm

76. Yerin xəyali oxunun əyilməsi $30^0$ olsaydı, Bakı şəhərinə yay gündönümündə günəş şüaları hansı bucaq altında düşərdi ?
A) $80^0$ B) $60^0$ C) $63{,}5^0$ D) $90^0$ E) $70^0$

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

77. Kainatın başlanğıc vəziyyəti (sonsuz sıxlığa və temperatura malik bir nöqtə) necə adlanır?
A) “Biq Banq” B) Qalaktika
C) Qara dəlik D) Maqnit qütbü
E) Sinqulyarlıq

78. Coğrafi koordinatları $45^0$ şm.e. və $90^0$ ş.u. olan məntəqədən Yerin mərkəzindən keçməklə xəyali ox çəkilsə, bu ox hansı coğrafi koordinatlardan çıxar ?
A) $45^0$ c.e. və $90^0$ q.u.
B) $35^0$ şm.e. və $100^0$ ş.u.
C) $90^0$ c.e. və $180^0$ q.u.
D) $0^0$ c.e. və $100^0$ q.u.
E) $55^0$ şm.e. və $80^0$ ş.u.

79. $130^0$ q.u və $70^0$ şm en-dən $0^0$ azimutla hərəkət edən səyyah qütbə çatdıqdan sonra eyni meridian çevrəsi üzrə yoluna davam edərək ümumilikdə 5550 km məsafə qət etdi. Çatdığı məntəqənin yerləşdiyi saat qurşağını və coğrafi koordinatlarını müəyyən edin.
A) XXI ; $70^0$ şm.e $50^0$ q.u
B) V ; $50^0$ şm.e $70^0$ ş.u
C) III ; $40^0$ şm.e $50^0$ ş.u
D) III ; $60^0$ şm.e $50^0$ ş.u
E) XX ; $50^0$ şm.e $60^0$ q.u

80. Afrika, Avrasiya və Antarktida materiklərinin coğrafi mövqeyi üçün ümumi cəhət:
A) Şimal tropik xətti ilə kəsişirlər
B) Bütün okeanlarla əhatə olunmuşlar
C) Cənub tropik xətti ilə kəsişirlər
D) Sakit okeanla əhatə olunmuşlar
E) Başlanğıc meridianı ilə kəsişirlər

81. Aşağıdakı hansı fikir Avstraliya materiki üçün doğru deyil ?
A) İki işıqlanma qurşağında yerləşir
B) İki okeanla əhatələnir
C) İki yarımkürədə yerləşir
D) Günəş üzərində zenitdə olur
E) Mərkəzindən ekvator xətti keçir

82. Aşağıdakılardan hansı ***yanlışdır***?
A) S. Hokinq nəzəriyyəsinə görə qalaktikalar bir-birindən uzaqlaşır və kainat genişlənir.
B) “Böyük sıxılma” və “Böyük Partlayış” nəzəriyyələri bir-birinə əks olan yanaşmalardır.
C) Kainatın nəhəng cisimləri planet adlanır.
D) O. Şmiditə görə planetlər qaz və tozdan ibarət soyuq diskşəkilli kosmik buluddan yaranmışdır.
E) Tərkibində milyarda qədər ulduz olan sistem qalaktika adlanır.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam Kaspi

**Açıq tipli test sualları:**

83. Şəklə əsasən Günəşin zenitdə olduğu enliklə tropik işıqlanma qurşağının cənub sərhədi arasındakı məsafəni km-lə hesablayın (Nəzərə alın ki, $1^0$-lik meridian qövsünün uzunluğu 111 km-dir.).




84. A- nöqtəsi üçün doğru olanları seçin.




1. Günəş ildə iki dəfə zenitdə olur.
2. Ekvatordan məsafəsi 2350 km-dir.
3. 21 martda günəş $66,5^0$ bucaqla düşür.
4. Qütb ulduzu $23,5^0$ bucaqla görünür.
5. Günəşin maksimum düşmə bucağı $90^0$ - dir.

85. K məntəqəsi 56° ş.u-da, M məntəqəsi isə 57° q.u-da yerləşir. Buna əsasən ***yanlış*** fikirləri seçin.
1. K məntəqəsi Qrinviçə daha yaxındır.
2. M məntəqəsinin yerli vaxtı daha geridir.
3. M məntəqəsi yeni ili daha tez qarşılayar
4. K məntəqəsi III saat qurşağında yerləşir.
5. M məntəqəsi XX saat qurşağında yerləşir.

86. Yerə yaxınlığına görə planetləri sıralayın.
1. Yupiter 2. Venera 3. Merkuri 4. Mars

87. Uyğunluğu müəyyən edin.

| *Coğrafi enlik* | *22 dekabrda Günəş şüalarının düşmə bucağı* |
|---|---|
| 1. 50° şm.e.<br>2. 10° c.e.<br>3. 0° e. | a. 36,5°<br>b. 66,5°<br>c. 56,5°<br>d. 16,5°<br>e. 76,5° |

***Situasiya***

***Günəşin üfüqdə görünən hərəkətini əks etdirən şəkləəsasən 58-60 saylı sualları cavablandırın. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***




88. Günəşin üfüqdə görünən hərəkətinin müşahidə olunduğu məntəqə hansı yarımkürə və işıqlanma qurşağında yerləşir?

89. Günorta vaxtı şaquli dirəyin kölgə uzunluğunu əks etdirən aşağıdakı təsvirlərlə (**1,2,3**) Günəşin üfüqdə görünən hərəkətinin müşahidə olunduğu tarixləri uyğunlaşdırın.

**1** **2** **3**



**Cavab:**

**1-** ________________________

**2-** ________________________

**3-** ________________________

90. Günəşin üfüqdə görünən hərəkətini əks etdirən şəkil hansı məntəqələr üçün uyğundur?




Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

mobilTeam1 kaspi